***DİN-in Polis Akademiyası “DİO-nun inzibati fəaliyyət” kafedrasının baş müəllimi, polis polkovnik-leytenantı, hüquq üzrə fəlsəfə doktoru***
***Şahin Teyyub oğlu Şükürov***

**Ümumi müvəffəqiyyətə aparan qarşılıqlı əməkdaşlıq**

Azərbaycan Respublikası Prezidenti tərəfindən 12 iyun 2006-cı il tarixli 419 nömrəli “Azərbaycan Respublikası DİN-in xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında” fərman imzalanmışdır. Fərmana əsasən cinayətkarlığa qarşı mübarizə, ictimai qayda və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində DİN-in müvafiq beynəlxalq təşkilatlarla və xarici ölkələrin hüquq-mühafizə orqanları ilə əməkdaşlığının effektivliyinin artırılması və inkişaf etdirilməsi məqsədi ilə daxili işlər nazirinə, Azərbaycan Respublikasının Prezidenti və həmçinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılmaqla, DİO-nun funksiyalarının həyata keçirməsinin təmin edilməsi üçün xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda Azərbaycan Respublikası DİN-in nümayəndələrinin təyin edilməsi səlahiyyəti verilmişdir. Azərbaycan Respublikası DİN-in xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələri haqqında qəbul edilmiş Əsasnamə Azərbaycan Respublikası daxili işlər nazirinin 13 fevral 2009-cu il tarixli 79 nömrəli əmri ilə təsdiq edilmişdir.

DİN-in xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələri öz funksiyalarını Azərbaycan Respublikasının xarici dövlətlərdəki və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndələrinin tərkibində həyata keçirirlər.

Bu gun Russiya Federasiyasında Azərbaycan Respublikası DİN-ni layiqincə təmsil edən, onun şərəfli nümayəndəsi olan polis general-mayoru Yusifov Əkbər Arif oğludur. Əkbər müəllim həmçinin Müstəqil Dövlətlər Birliyi”nin iştirakçısı olan dövlətlərin ərazisində “Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büro”nun direktorunun Azərbaycan Respublikası DİN-yi tərəfindən müavini vəzifəsini də icra edir. Xüsusi ilə qeyd etmək istərdik ki, “Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büro”nun rəhbərliyi qarşısında və əməkdaşları arasında cənab Yusifovun ayrıca bir yeri, hörməti və nüfuzu vardır.

Nümayəndələr olduqları ölkələrinin qanunlarına riayət etməklə əsas vəzifələrindən biri də, Azərbaycan Respublikası DİN-in nümayəndə heyətinin xarici ölkədə olduğu müddətdə üzərinə qoyulmuş vəzifələrin həllində köməklik göstərmək, keçirdiyi görüşlərdə nümayəndə heyətinin üzvü qismində iştirak etməkdən ibarətdir. Cənab Yusifov, həmin bu vəzifəni icra edərək vətəndən Rusiya Federasiyasına xidməti

ezamiyyətə gələn, beynəlxalq tədbirlərdə iştirak edən hər bir nümayəndə ilə ğörüşməyə və onlara öz köməyini əsirğəməməyə çalışır.

"Müstəqil Dövlətlər Birliyi"nin iştirakçısı olan dövlətlərin daxili işlər nazirləri Şurası nəzdində Elmi-Məşvərət Şurasının 27.10.2016-ci il tarixində Rusiya Federasiyasının Moskva şəhərində keçirilən növbəti iclasında həmin qurumda Azərbaycan Respublikası DİN-in nümayəndəsi kimi iştirak etmişdim. Həmin ərəfədə Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının "DİO-da idarəetmənin təşkili və ixtisasartırma" fakültəsinə bir il müddətinə orta və böyük rəis heyətindən ibarət dinləyicilər qəbul edilmişdir.

Polis Akademiyasının rəisinin polis ğeneral-mayoru Nazim Əliyevin göstərişinə əsasən ezamiyyət müddətində Rusiya Federasiyasıda Azərbaycan Respublikası DİN-nin nümayəndəsi ilə ğörüşərək, "DİO-da idarəetmənin təşkili və ixtisasartırma" fakültəsi dinləyicilərinə tədris metodik kömək ğöstərmək məqsədilə müraciət etmək də daxil idi.

Polis general-mayoru Yusifov Əkbər Arif oğlu həmişəki kimi öz köməyini əsirgəmədi. Tədris olunan fənlər üzrə 130 ədədə yaxın mənbələrin "Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büro"nun imkanları çərcivəsində, Moskva şəhərinin hüquqi ixtisas kitab mağazalarına müraciət edərək bir yerə toplanması, sistemləşdirilməsi və vətənə ğöndərilməsi Əkbər müəllimin rəhbərliyi ilə təşkil olunmuşdur. Bir canlı şahid kimi qeyd etmək istərdim ki, bu ağır tədbir cox çevik və qısa bir müddətdə həyata keçirilmişdir.

Bu ğun də həmin tədris vəsaitləri Polis Akademiyası rəhbərliyinin göstərişi əsasında Polis Akademiyasının Ümumi kitabxanasının ayrıca güşəsində yer tutur. Polis Akademiyasının professor-müəllim heyəti, "DİO idarəetmənin təşkili və ixtisasartırma" fakültəsinin dinləyiciləri və diğər təhsil alanlar həmin mənbələrdən səmərəli istifadə edirlər.

Onuda qeyd etmək istərdim ki, Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlərin "Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büro" sundan daxil olmuş məktuba əsasən 14 dekabr 2017-ci il tarixində Moskva şəhərində Rusiya DİN-in İdarəetmə Akademiyasının və Rusiya DİN-in V.Y.Kikot adına Moskva Universitetinin rəhbərliyi ilə qarşılıqlı əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədilə işçi görüşlər keçirilmişdir. Həmin tədbirdə DİN-in Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev, Akademiyanın tədris və elmi işlər üzrə rəis müavini, polis polkovniki Mahir Əhmədov və Beynəlxalq əməkdaşlıq qrupunun inspektoru, polis mayoru Ruslan Cəfərov iştirak etmişdilər.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının nümayəndə heyəti Rusiya DİN-in İdarəetmə Akademiyasının tədris və elmi fəaliyyəti ilə tanış oldu. Akademiyanın rəisi, polis general-leytenantı Andrey Konev və onun birinci müavini,

polis general-mayoru Aleksandr Paradnikovla görüşdən sonra İdarəetmə Akademiyasının təhsil prosesinin, təhsil resurslarının, maddi-texniki bazasının, eləcə də dissertasiya şuralarının fəaliyyətinin təşkili barəsində məlumat verildi.

Bundan başqa gələcəkdə qarşılıqlı əməkdaşlığın yolları haqqında fikir mübadiləsi aparıldı. Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev isti münasibətə, qonaqpərvərliyə görə Rusiya Daxili İşlər Nazirliyinin İdarəetmə Akademiyasının rəisinə öz minnətdarlığını bildirdi və xatirə kitabında öz təəssüratlarını qeyd etdi.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının rəhbərliyi Rusiya DİN-in V.Y.Kikot adına Moskva Universitetin rəisi, polis general-leytenantı İvan Kaliniçenko ilə, görüş zamanı xüsusi ixtisas ali təhsil müəssələrinin fəaliyyəti, perspektivləri, gələcək qarşılıqlı əməkdaşlıq barəsində ətraflı fikir mübadiləsi aparılmışdır. Moskva Universitetinin rəisi, polis general-leytenantı İvan Kaliniçenko Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının nümayəndə heyətini təhsil müəssəsinin fəaliyyəti, elmi potensiyalı, maddi-texniki bazası ilə ətraflı tanış etmişdir.

Azərbaycan Respublikası DİN-ni nümayəndəsi polis general-mayoru Əkbər Yusifov Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının rəhbərliyinin nümayəndə heyəti ilə ğörüşüb, tədbir müddətində diqqətini əsirgəməmişdir.